*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 236-240* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.236*

## *Folklorşünaslıq*

# Məhəbbət dastanlarında aşıq və hökmdar qarşıdurması
### *(“Abbas və Gülgəz” dastanı əsasında)*

**Yaqut Əşrəfova**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
E-mail: yaqut.bahadur@gmail.com

**Annotasiya.** Məqalədə məhəbbət dastanlarında aşıq və hökmdar ikiləşməsi mövzusu araşdırılmışdır. Mövzu “Abbas və Gülgəz” dastanı üzərində tədqiqata cəlb edilmişdir. Dastan mətnindəki ikiləşmə və qarşıdurma dastanın ideyasını daha qabarıq şəkildə çatdırmağa xidmət edən bədii poetik elementlərdən biridir. Tədqiq olunan dastanda biz şah və aşıq qarşıdurmasını müşahidə edirik. Belə bir qarşıdurmada üstünlük aşığa verilir. Çünki təqdim edilən dastanda aşıq haqqı, sevgini və mənəvi dəyərləri təmsil edir. Təhlil nəticəsində xalqın mənəvi dəyərlərə verdiyi önəm aydınlaşdırılır.
**Açar sözlər:** Azərbaycan, məhəbbət, dastan, aşıq, hökmdar, qarşıdurma

**Məqalə tarixçəsi:** göndərilib – 02.09.2024; qəbul edilib – 12.09.2024

# Conflict between the ashig and the ruler in love epics
### *(Based on the epic “Abbas and Gulgaz”)*

**Yagut Ashrafova**
Doctor of Philosophy in Philology
Ministry of Culture of the Republic of Azerbaijan
The National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi
E-mail: yaqut.bahadur@gmail.com

**Abstract.** The article examines the theme of the duality of the ashig and the ruler in love epics. The theme was used in the study of the epic “Abbas and Gulgaz”. Duality and conflict in the text of the epic is one of the artistic and poetic elements that serve to convey the idea of the epic more expressively. In the studied epic, we observe a conflict between the ruler and the ashig of the beloved of Allah. In such a conflict, preference is given to the ashig. Because in the presented epic, the ashig is right. He represents love and spiritual values. As a result of the analysis, the importance that the people attach to moral values is revealed.
**Keywords:** Azerbaijan, love, epic, ashig, ruler, conflict

**Article history:** received – 02.09.2024; accepted − 12.09.2024

## Giriş / *Introduction*

Azərbaycan məhəbbət dastanlarında obrazların içərisində dastanın əsas qəhrəmanının ikiləşməsi və ya qarşıdurması nümunəsinə rast gəlinir. Bu tipli ikiləşmə əsas qəhrəmanın yanındakı köməkçi ilə finksiyaların bölünməsi şəklində baş vermir. Qəhrəmanın yardımçıları və onların daşıdığı funksiya başqa bir araşdırma mövzusudur. Qəhrəmanın özünün ikiləşməsi və qarşıdurma münasibətinə daxil olması isə keyfiyyətcə fərqli bir məsələdir. Dastanda əsas ideyanı daşıyan qəhrəman obrazı bu baxımdan yetərincə araşdırılmayıb. Obrazın hansı səbəblərdən ikiləşməsi və onun qarşıdurma münasibətinə girməsi, bu zaman baş verən məna yaranması, rəngarəngliyin artması və s. proseslər öyrənilməlidir. Bu prosesi aydınlaşdırmaq üçün biz Azərbaycan məhəbbət dastanları içərisində xüsusi yeri olan "Abbas və Gülgəz" dastanını seçdik. Bu dastanın nümunəsində obrazın ikiləşməsinin bəzi çalarlarını təhlilə cəlb etmişik. Təhlili daha dolğun şəkildə aparmaq üçün digər dastanlardakı bənzər motivlərlə müqayisə də aparmışıq.

Qeyd edək ki, bir çox aşıqlarımız məhəbbət dastanlarının qəhrəmanlarıdır. Başqa şəkildə desək, aşıqların özləri aşıq dastanının qəhrəmanı olurlar. Mövcud elmi qənaətlər belədir ki, bu dastanları ya həmin ustad aşıq özü, ya da onun şagirdləri ustadları haqqında yaradırlar. Reallıq ondan ibarətdir ki, əlimizdə orta əsrlərin sonlarından sonrakı dövrə aid çoxlu sayda dastan nümunələri vardır və bunların bir hissəsi də məhəbbət dastanlarıdır. Bu dastanların bəziləri birbaşa və ya dolayısı ilə aşıq şəxsiyyətləri ilə bağlıdır. Belə dastanlardan biri də "Abbas və Gülgəz" dastanıdır. P.Əfəndiyevin də qeyd etdiyi kimi, "aşıq dastanlarımız içərisində öz ideya-bədii dəyəri etibarı ilə "Abbas və Gülgəz" mühüm yer tutur" [3, s.294].

## Əsas hissə / *Main Part*

Aşıq sənəti ilə bağlı araşdırma apardığımız zaman Şirvan aşıq mühitinin görkəmli nümayəndələrinin dastan repertuarında da "Abbas və Gülgəz"in xüsusi yer tutduğunu müşahidə etmişdik. XX əsrin ikinci yarısında Şirvan aşıq mühitinin görkəmli sənətkarı Aşıq Şakirin repertuarında da "Abbas və Gülgəz" dastanı çox aktiv bir yer tuturdu. Aşığın ifasında bu dastanı canlı olaraq dəfələrlə dinlədiyimi və aşığın böyük ustalıqla canlandırdığı dastan səhnələrini xatırlayıram. Saz musiqisi, balaban melodiyası və Şakirin məlahətli səsi ilə dastan personajlarının mükaliməsini, şeirləşməsini və deyişmələri dinləmişəm. Görkəmli sənətkarın bu dastana böyük sevgi ilə yanaşdığını və yüksək dəyər verdiyini, onu bütün qəlbi ilə məclislərdə təqdim etdiyini müşahidə etmişəm. Şakirin ifasında dinlədiyim "Gəlirdim ey Tufarqanın elindən, yolum düşdü obasına Pərimin" sədasının məclisi necə həyəcanlandırdığı, hər kəsin diqqətlə dastanı dinlədiyini xatırlayıram. Aşıq Şakir aşıq Abbasın eşqini çox təsirli və duyğulu bir şəkildə ifadə edirdi:

*Abbas ağlar zarı-zarı,*
*Getməz könlünün qübarı,*
*İlqarından dönən yarı,*
*Tanrı tezbazar eyləsin!*

Bu dastanda adıçəkilən Abbas görkəmli Azərbaycan aşığı Aşıq Abbas Tufarqanlıdır. Aşıq Abbas Azərbaycan aşıq sənətində böyük bir sənətkar olmasına baxmayaraq, haqqında olduqca məhdud məlumat qalmışdır. Yaradıcılıq nümunələri isə şifahi ənənədə yaşamış və günümüzə qədər gəlib çatmışdır.

Aşıq Abbasın Tufarqandan olması onun adında işlənən yer mənsubiyyətindən görünür. Tufarqanın Cənubi Azərbaycanda və Təbriz şəhəri yaxınlığında bir kənd olduğu bilinir. Aşığın yaşadığı dövrün də XVII əsr olduğu ümumi şəkildə məlumdur. XVI-XVII əsrlər Azərbaycanda Səfəvilərin hakimiyyətdə olduğu dövr kimi xarakterizə olunur. Bu dövrün başlıca mədəni səciyyəsi təsəvvüfün yayğın olması, dövrün əsas fəlsəfəsinin sufi ideyalar və təcrübə üzərində gerçəkləşməsi idi. Həmin dövrdə Azərbaycanda Səfəvi sarayının dəstəyi ilə aşıq sənəti özünün çiçəklənmə dövrünü yaşamışdır.

Qeyd etdik ki, aşığın şeirlərinin hamısı günümüzə qədər gəlib çatmamışdır. Bəzi cünglərdə nümunələr qalsa da, bu, aşığın irsinin çox az bir qismini əhatə edir. Yaradıcılığının əsas hissəsi aşıq ənənəsində qorunmuşdur.

Aşığın şeir irsi, əsasən, qoşma və gəraylılardan ibarətdir. Şeirlər üzərində müşahidədən aydın olur ki, şeirlər bədii cəhətdən mükəmməl sənət nümunələridir. Aşığın yaradıcılığından bəzi nümunələr "Abbas və Gülgəz" dastanında mühafizə olunmuşdur.

Azərbaycan xalq dastanlaının tədqiqatçılarından biri olan M.H.Təhmasibin fikrinə görə, "Abbas və Gülgəz" dastanının müəllifi elə Aşıq Abbasdır. Dastanın poetik strukturu ilə bağlı M. Cəfərlinin tədqiqatında bəhs olunub [2]. Bu mövzu haqqında fikrimizi daha əvvəldə qeyd etmişik. Onu əlavə edə bilərik ki, dastanı aşığın özü və ya şagirdlərinin yaratması məsələni dəyişmir. Bizim üçün belə bir dastanın mövcudluğu həm dastan yaradıcılığını, həm də Aşıq Abbasın həyat və yaradıcılığını öyrənmək üçün əlavə məlumat qaynağı təşkil edir və bu mənada dəyərlidir.

Aşıq Abbasın şeirlərində Pəri, Gülgəz, Əsmər, Dəli Becan kimi adlar onun dastan yaradıcılığının verdiyi məlumatlardır. Dastandan aydın olur ki, Abbas təbrizli Məhəmməd bəyin bacısı Pəriyə aşiq olur. Pəri də Abbası sevir. Məhəmməd bəy də onların izdivacına razı olur. Lakin onun vəziri bu izdivaca mane olur. Bu mənfi fəaliyyətdə vəzirin qızı Əsmər də iştirak edir. Digər tərəfdən ölkənin padşahı Şah Abbas Pərinin gözəlliyindən xəbər tutur. Sarı Xoca, Dəli Becan və Allahverdi xanı Təbrizə Pərinin dalınca göndərir. Həmin vaxt Məhəmməd bəy və Aşıq Abbas Təbrizdə olmur və Pərini İsfahana, şah sarayına aparırlar. Beləliklə, dastanda ciddi bir qarşıdırma yaranır. Burada Aşıq Abbas və Şah Abbas qarşıdurmasını müşahidə edirik. Dastan təsvirlərindən aydın olur ki, Aşıq Abbas bütün sınaqlardan ləyaqətlə çıxır və şah Pərini geri qaytarmalı olur. Aşiqlə məşuq bu şəkildə vüsala yetmiş olurlar.

Dastanın tarixi həqiqəti nə qədər dəqiq əks etdirməsini müəyyənləşdirmək çətindir. Amma burada mövcud olan münasibətlər, ideyalar və obrazlar dövrün ümumi mənzərəsi haqqında müəyyən təsəvvür yaradır. Aşığın şeirlərindən onun öz dövrünün qüsurlarına, neqativ hallarına, xüsuslə mənəvi məsələlərinə çox həssas yanaşdığını görürük. Aşıq "Bəyənməz" adlı qoşmasında dövrün mənəvi mənzərəsini canlandırıb.

Dastan özündə müəyyən ikiləşmələri (dualizm) və ziddiyət yaradan qarşıdurmaları ifadə etməkdədir. Bir tərəfdən insan və cəmiyyət, digər tərəfdən mənəvi dəyərlər və dövrün çətinlikləri və s. müxtəlif tipli qarşıdurma cütlükləri yaradaraq dramatizmi dərinləşdirir.

Aşiq və məşuq münasibətləri təsəvvüf fəlsəfəsi içərisində insan və Allah münasibətlərini ifadə edir və "vəhdəti-vücud"u təcəssüm etdirir. Aşiq və məşuq arasındakı maneə isə aşiqin sınaqdan keçməsini təmin edir. Məşuqa ikinci iddialının da olması dastandakı dramatizmi gücləndirir. Təsəvvüf kontekstində isə nəfslə mübarizə, mənəvi təkamül prosesindəki maneələri aşmaq üçün əngəllər kimi görünür. Dastanda ikiləşən iddialı həqiqi aşiqi üzə çıxarmağa yardım etmiş olur. Bunlardan biri haqq aşiqi, digəri isə həqiqi olmayan aşiqdir. Əlbəttə, məsələyə "Abbas və Gülgəz" dastanından baxdığımız zaman görürürük ki, həqiqi aşiqin qarşısına çıxarılan maneə özündə böyük bir qüvvəni ehtiva edir. Bu rəqib ölkənin şahıdır, ixtiyar sahibidir. Bu baxımdan böyük güclə qarşılaşma eşqin böyüklüyünü göstərməyə xidmət edir. Burada verilən obrazlar təsadüfən seçilməmiş, mümkün ehtimallar içərisindən götürülmüşdür.

Dastanda cərəyan edən hadisələr ənənəvi dastan süjetinə uyğun şəkildə qurulmuşdur. Qəhrəmanın doğulması və ad alması motivləri qəhrəmanlıq dastanlarında olduğu kimi geniş verilmir və bunların üzərindən sürətlə keçilir. Başlanğıc hissədə əsas motiv yuxu və yuxuda butaalma motividir. Abbas yuxuda buta aldıqdan sonra butasının ardınca gedir. Yolda Xoca Mayılla rastlaşır və Xoca Mayıl ona doğma münasibət göstərir və öz atını aşığa verir. Bundan sonra Abbas Təbrizə yolunu atla davam edir. Təbrizdə ilk qarşılaşdığı hadisə bir nəfərin borclu olduğu üçün döyülməsi səhnəsi olur. Abbas bu adamın borcunu ödəmək üçün ona Xoca Mayıl tərəfindən verilmiş atı təklif edir. Beləliklə, o, həmin adamı borcdan xilas edir. Qəmbər adlı bu gənc Abbasla qardaş olur. Burada biz hadisələrin sufi səciyyəsini müşahidə edirik. Haqqa doğru gedən sufiyə kömək edənlərin hər biri sufi təkamülün bir mərtəbəsini simvolizə etməkdədir. Qəhrəmanın köməkçi

qazanması ilə ikiləşməsi də maraqlı bir məqamdır. Abbasın yanında köməkçisi vardır və o, məqsədinə doğru hərəkətini davam etdirir. Haqq aşiqinin hərəkəti iki şəkildə özünü göstərir: aşiq kimi və aşıq kimi. Aşiq və aşıq ikiləşməsi bir-birini əvəz edir. Hər dəfə bunlardan biri özünü daha qabarıq göstərir. Biz "Koroğlu" dastanında da Koroğlunu döyüşçü, aşıq və bəzən də çoban libasında görürük.

Təbrizə gəldikdən sonra Abbasın ilk gördüyü iş özünə saz almaq olur. Burada o, sazı bir aşıq kimi alır və saz musiqisi ilə öz aşıq məharətini göstərir. Saz ifası zamanı da onun qeyri-adi qabiliyyətləri üzə çıxır. Saz satan da ən yaxşı sazı qabiliyyətlərinə görə ona hədiyyə edir.

Bundan sonra dastanda Abbasın aşıq məclisinə getməsi və bu məclisdə Təbriz aşıqları ilə deyişməsi səhnəsini müşahidə edirik. Abbasın bu hadisələrdə iştirakı zamanı ikiləşmədə dəyişiklik baş verir. Abbas görür ki, onun dostu Qəmbər aşıq məclisinə getməkdən ehtiyat edir. Ona görə də məclisə ondan xəbərsiz gedir və özü ilə bir çoban aparır. Burada Aşıq Sənan, Aşıq Şirvandostu, Batmanqılıncın adamı kimi personajları görürük.

Dastanda hadisələrin əsas hissəsi Təbrizdə baş verir. Gülgəz Pəri Təbriz valisi Məhəmmədin bacısıdır. Batmanqılınc da Məhəmmədin ləqəbidir. Abbası Batmanqılıncın məclisinə aparırlar. Bu zaman Qəmbər də onunla gedir. Abbas Batmanqılıncdan Allahın əmri ilə bacısını istəyir. Burada məclisdə iştirak edən vəzir bu izdivaca mane olmağa çalışır. Amma Batmanqılınc bacısını Abbasa verməyə razı olur. Hadisələrin bir düyünü burada çözülmüş olur.

Növbəti həlqə vəzirin müxtəlif yollarla Gülgəz Pəri ilə Abbas arasındakı münasibəti pozmağa çalışmasıdır. Bunun üçün hiyləgər qarı obrazından istifadə olunur. Hadisələrdən məlum olur ki, vəzirin məqsədi bu izdivacı pozub Gülgəz Pərini öz oğluna almaq istəyidir.

Dastanda növbəti və daha ciddi ziddiyyət həlqəsi Şah Abbasın hadisələrə daxil olması ilə başlayır. Şah Abbas məclisdə xanımı Pərlamı tərifləməsi ilə yeni bir düyün nöqtəsinin əsası qoyulur. Burada da Sarı Xoca adlı saray məmuru Təbriz valisi Məhəmmədin Gülgəz Pəri adlı çox gözəl bir bacısının olduğu xəbərini verir. Bu xəbəri eşidən Şah Abbas əmr verir ki, Gülgəz Pərini onun sarayına gətirsinlər. Şahların külli-ixtiyar sahibi olduğu bir dövrdə ən gözəl qadınlar onların hərəmlərinə daxil edilirdi. Əlbəttə, belə şəraitdə haqq aşiqliyi, həqiqi aşiq yalnız haqdan aldığı fövqəladə güclə vəziyyətdən çıxa bilərdi. Şahın əmri ilə Dəli becan zorla Gülgəz Pərini saraya aparır. Həmin vaxtda Məhəmməd bəy səfərdə olur, Abbas isə Tufarqanda. Belə bir şəraitdə Gülgəz Pəri İsfahana, Şah Abbasın sarayına aparılır.

Aşıq Abbasın Şah Abbasla qarşılaşması əksliklərin vəhdəti kimi sufi fəlsəfənin bədii ifadəsi olaraq anlaşıla bilər. Haqq Aşiqi Abbasla ölkənin hökmdarı Şah Abbas arasında bir rəqabət yaranır. Aşıq hökmdarla rəqabətə girə bilməz. Belə vəziyyətlərdə bir qayda olaraq hökmdarlar qalib gəlirlər və istədiklərini əldə edirlər. Bu vəziyyətdə də Şah Abbas üstün mövqedədir.

Abbas Gülgəzi saraya aparan kəcavəni yolda qabaqlayır və Xoca Yaqub quyusu ətrafında yeni bir hadisə həlqəsi cərəyan edir. Burada Sarı Xoca ilə Dəli Becan Abbası su quyusuna salırlar, su götürdükdən sonra isə kəndiri kəsirlər. Bundan sonra səhər quyunun sahibi Xoca Yaqub quyunun başına gəlir. Abbası quyudan çıxarmaq üçün kəndə köməyə gedərkən Şahi-Mərdan zühur edir və Abbası quyudan xilas edir. Buradakı xoca obrazını "Kitabi-Dədə Qorqud"dakı Xızır obrazı ilə müqayisə etmək mümkündür [4]. Hər iki obrazda xilaskarlıq funksiyası vardır. Bunlardan biri real, digəri isə mifoloji obrazdır.

Aşıq Abbas quyudan xilas olandan sonra İsfahana, şahın sarayına gedir və orada şah onu zəhərli quyuya saldırır. Allahın hökmü ilə quyudakı zəhər gülaba dönür və Abbas quyuda sağ qalır. Zəhərli quyudan xilas olan Abbası digər sınaqlara çəkirlər. Abbas bu sınaqlardan da sağ çıxır. Bundan sonra Şah Abbas deyir: "Abbas haqq aşığıdır, onun sevgilisini əlindən alsaq, bəlaya düşərik. Bütün sınaqlardan çıxdı. Onu öldürməyib, Pərini özünə verirəm" [1, s.182].

Dastan nikbin sonluqla, aşiq və məşuqun qovuşması ilə başa çatır. Hadisələr Tufarqandan başlanır, Tufarqanda da tamamlanmış olur.

Bütün dastan boyu müxtəlif tipli ikiləşmələrlə qarşılaşırıq. Bunların içərisində həm dost və yoldaş kimi, həm də rəqib və zidd mövqeli ikiləşmələr müşahidə olunur. Aşıq Abbasın yanında ona kömək edən yoldaşı aşığı hər yerdə müşayiət edir. Dastan iki Abbası qoşalaşdırır və bu

müstəvidə üstünlüyü haqq aşiqi Abbasa verir. Bütün ikiləşmələr hər biri bir mənanın yaranmasına xidmət edir. Burada dostluq, vəfa, fədakarlıq kimi mənəvi keyfiyyətlər obrazlaşdırılır. Bu baxımdan dastandakı ikiliklər arasındakı münasibətlər mənəvi bir mühitin səciyyəsini göstərməyə xidmət edir. Haqq aşiqinə kömək etmək haqqa doğru getmək mənasını da ifadə edir. Bu mənada haqq aşiqinin yanında olmaq da haqqın, ədalətin yanında olmaq kimi anlaşılır.

Dastanda ikiləşmə, qoşalaşma müxtəlif formalarda təzahür edir. Təkcə şəxslər deyil, quyu belə iki şəkildə və iki dəfə qarşımıza çıxır. Xeyir və şər qoşalığı dastan məlumatının dramatizmi gücləndirərək və mənəvi konteksti dərinləşdirərək təqdim etməyə yardım etmiş olur.

## Nəticə / *Conclusion*

"Abbas və Gülgəz" dastanı Azərbaycan xalqının mənəvi dəyərlərini özündə əks etdirən bir bədii nümunədir, aşıq yaradıcılığıdır. Bu nümunədə xalqımızın tarixi-mədəni dəyərləri, sevgiyə, haqqa, ədalətə verdiyi önəm özünün aydın ifadəsini tapır.

## Ədəbiyyat / *References*


1. Azərbaycan dastanları. 5 cilddə, II c. – Bakı: Çıraq, 2005. – 440 s.
2. Cəfərli, M. Məhəbbət dastanlarının poetikası. – Bakı: Elm, 2000. – 264 s.
3. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Maarif, 1981. – 404 s.
4. Kitabi-Dədə Qorqud. – Bakı: Yazıçı, 1988. – 265 s.


## Конфликт между ашыгом и правителем в любовных эпосах
## *(по мотивам эпоса «Аббас и Гюльгаз»)*


**Ягут Ашрафова**
Доктор философии по филологии
Министерство культуры Азербайджанской Республики
Национальный музей азербайджанской литературы имени Низами Гянджеви
E-mail: yaqut.bahadur@gmail.com



**Резюме.** В статье исследуется тема двойственности ашыга и правителя в любовных эпосах. Тема была связана с исследованием эпоса «Аббас и Гюльгаз». Двойственность и конфликтность в тексте эпоса – один из художественно-поэтических элементов, служащих для более выразительной передачи идеи эпоса. В изучаемом эпосе мы наблюдаем конфликт между правителем и ашыгом. В этом конфликте ашыг одерживает верх. Он символизирует любовь и духовные ценности. В результате анализа выясняется значение, придаваемое народом моральным ценностям.


**Ключевые слова:** Азербайджан, любовь, эпос, ашыг, правитель, конфликт